# "I Bakı Müasir Musiqi Günləri" festivalından təəssüratlar

**Bakı musiqi həyatını sakitcə dalğalanan dəniz kimi düşünsək, may ayının son günlərində bu dalğalar hər zaman olduğundan daha hərəkətli idi... Məhz "I Bakı Müasir Musiqi Günləri" festivalı bu hərəkətlənməyə səbəb oldu. Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşdirilən planın təşkilatçılar tərəfindən hansı konsepsiya ilə hazırlandığı afişalardan artıq görünürdü. Lakin nəticə etibarilə həm təşkil edən tərəf, həm də dinləyici kütləsi üçün düşünülən və arzu olunan mənzərə göründümü? Zənnimcə, müəyyən qədər detallardan bəhs olunandan sonra yenidən bu suala qayıtmaq lazım gələcəkdir. İndi isə gəlin festival günlərinə bir qədər yaxından diqqət yetirək.**



Beş gündən ibarət festivalın günlük olaraq ilkin hadisəsi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilən workshop, mühazirə və ustad dərsi kimi müxtəlif səpkili görüşlərdən başlayırdı. Festivala dəvət edilən musiqiçilərlə günün ilk yarısında müvafiq mövzularla görüş edilirdisə, ikinci yarıda onların səhnə çıxışını görmüş olurduq. Hər nə qədər ifaçı kimi peşəkar standartlara cavab verən şəxslər olsa da, nəzəri söhbətlərdə bir çoxunun zəif və tətmin etməyən təqdimatı baş tutdu. Bu barədə daha konkret örnəklər gətirmək istəyərdim:

Məsələn, hər bir çıxış üçün bir saat nəzərdə tutulmuşdu və bu zaman çərçivəsində Fidan Ağayeva-Edlerin (Azərbaycan) "Pianoda müasir ifaçılıq texnikaları" mövzulu workshopu keçirildi ki, lazımlı və sadə informasiya ilə yanaşı, daha mürəkkəb və dərin yanaşmanı da görmək çox yaxşı olardı... Violonçel ifaçısı Yulia Miqunovanın (Rusiya) "Müasir musiqidə ifaçının rolu" başlıqlı çıxışında yalnız müvafiq əsərlərin video görüntü təqdimatı nə qədər faydalı deyildisə, klarnet ifaçısı və musiqişünas Andrei Jürgensonun (Rusiya ? Qazaxıstan) "Müasir musiqidə tembr və forma" adlı mühazirəsi bir o qədər dolğun idi. Onun isə tək problemi mövzu ilə əlaqədar olan obyektiv və subyektiv fikirlərini izah edərkən monoton nitqi ilə bütün marağı söndürməsində oldu. Məncə, bu görüş silsiləsindəki ən bərəkətli gün 24 may tarixinə təsadüf etdi. Bəstəkar Aleksander Xubeyevin (Rusiya) ustad dərsi kifayət qədər konkret və səmərəli keçdi. Ardınca isə, klarnet ifaçısı Szilard Benesin (Avstriya) "Klarnetdə müasir ifaçılıq texnikaları: multifoniklərin növləri, mikrotonallıq imkanları" mövzusunda çox uğurlu və maraqlı çıxışı oldu. İfaçının başda verdiyi bir sual nəticəsində auditoriyada bəstəkarların sayca klarnet ifaçılarından çox olduğu anlaşıldı və bu səbəblə nəzərdə tutulan workshop birdən birə maraqlı bir mühazirəyə çevrildi. Faydalı olacağına ümidimin böyük olduğu lakin, fiziki olaraq qatıla bilmədiyim bəstəkar Daniel Veissbergin (İsveçrə) "İştirakı təşviq edən kompozisiya" başlıqlı mühazirəsi isə həmin görüşdə iştirak edən musiqiçilər tərəfindən sərt şəkildə tənqid edilərək, bu mühazirənin tamamilə "vaxt itkisi olduğu" fikrini eşitdiyimi qeyd edə bilərəm.

Festivalla bağlı təəssüfləndiyim ən böyük məqam isə musiqi cəmiyyətimizin mənfi və müsbət cəhətləri ilə var olan bu interaktiv görüşlərə qarşı laqeyd münasibəti oldu. Ölkədə ustad dərslərinin sayca çox az olmasından şikayətlənən gənc nəsil nümayəndələrini görmək demək olar ki, mümkün deyildi. Bir sezon boyunca bəstəkarlıq, violin və klarnet ifaçılığı kimi ixtisaslar üzrə ustad dərslərinin sayı gənc musiqiçilərin bunlara qatılmamaq üçün rahatlıqla verdiyi bir seçimə görə kifayət qədər azdır... Müasir musiqi - həm musiqiçilər, həm də musiqisevərlər arasında bir mübahisə mövzusu olduğundan, bu cür konsertərin tam dolmamış salonda keçməsi aydın məsələdir. dinləyicilərlə tam dolmayan salonda müasir musiqi konsertlərinin keçməsi də aydın məsələdir. Lakin müvafiq mövzularda öncədən hansı səviyyədə keçəcəyini bilmədiyimiz interaktiv tədbirlərə qatılanların sayca həddindən artıq az olması mənim üçün qorxuducu bir mənzərə oldu... Üstəlik, bu soyuq yanaşma açılış günündən etibarən aydın şəkildə görünürdü. Gənc musiqiçilərin isə günümüz musiqi həyatındakı solğun varlığı artıq hər kəsin sorğulamalı və addım atmalı olduğu başqa bir böyük məsələdir.

Konsert planı isə dörd gün boyunca günorta və axşam olmaqla qurulmuşdu. Ümumi olaraq, yerli və xarici ifaçıların konsert proqramlarının öhdəsindən uğurla gəldiyini demək olar. Bununla yanaşı, məncə, konseptual musiqinin bu qədər bol olduğu proqramlar tək bir böyük önsözlə deyil də, hər əsər öncəsi kiçik nitq çıxışları ilə təşkil edilsə daha rahat olardı. Bəlkə də, konsert zamanı musiqişünas çıxışlarında belə bir formatı da sınamağın artıq vaxtı gəlib. Əsas müsbət cəhət isə bu musiqişünas nitqlərinin sıxıcı olmamasındadır ki, narahat olduğum məqam sadəcə ötürülən informasiyanın həcminin böyüklüyündədir.

Daha bir diqqətimi çəkən məsələ isə bəzi səhnə geyimlərinin rahatlığı oldu. Anlayıram, biz musiqi dinləməyə gəlmişik, konsert mədəniyyətinə yeni baxış bucağı və s. Lakin, ifaçılara verilən bu xüsusi geyim anlayışından imtina etmək nə qədər lazımlı hərəkətdir? Səhnə geyimi həkim xalatı, futbolçu forması və yaxud hakimlərin geyindiyi mantiya kimi bir formadır və ifaçının səhnə görüntüsü o səhnədə olmayan insanlar üçün hər zaman kiçik həsəd hissi yaşadan bir maraq olaraq qal-






maqdadır. Bu şirin marağı, işin estetik gözəlliyini hansısa ideyaya qurban vermək nə dərəcədə düzgündür?

Konsert proqramları ilə bağlı isə bir sual: Nəyə görə yerli və xarici ifaçılar arasında olan say balansı bəstəkarlarda yox idi? Bəlkə müəyyən şəxsi məsələlərə görə, bəlkə də sadəcə diqqətsizliyə görə proqramlara salınmayan bir sıra Azərbaycan bəstəkarının adını nümunə kimi vermək mümkündür. Aqşin Əlizadə və Rüfət Xəlilov çıxmaq şərti ilə proqramda mövcud olan yerli bəstəkarların adı bizə sadəcə müəyyən bir qrupun musiqisini dinlətdirir. O qrup ki, artıq kifayət qədər aktiv şəkildə fəaliyyətdə olan "Cadenza" orkestrinin, bu musiqi festivalının qurucuları və onun zəhmətini çəkən dəyərli insanlardır. Bəlkə də digər bəstəkarlara qarşı skeptik yanaşmaları var, bəlkə də yoxdur...Hər bir halda təklif edərdim ki, gələn festival proqramında bu barədə daha rahat şəkildə davranılıb, son təqdir qərarı dinləyici kütləsinə buraxılsın. Bir industriya variantların çox olduğu yerdə inkişaf edər və bu musiqi sahəsinə də aiddir.

Festivalın son günü elmi seminarla açıldı: bəstəkar Elmir Mirzəyev - "Müasir Azərbaycan bəstəkar musiqisinin dünya musiqisi kontekstində yeri", musiqişünas Gültəkin Şamilli - "Şərq ya Qərb? Ənənə ya müasirlik?" və musiqişünas Vəfa Abbasova - "Azərbaycanda musiqi tənqidinin vəziyyətinə dair" mövzusu. Moderator qismində iştirak edən musiqişünas Zümrüd Dadaşzadə isə canlı emosiyalarla dolu nitqi ilə tədbiri açıq elan etdi. Böyük maraqla seminarın keçirildiyi otağa daxil olan musiqiçilərin daha sonra bədən dilindən sıxıldıqları və tətmin olmadığını çıxışlar boyunca görmək mümkün idi. Şəxsən yaşadığım ürəksıxıntısının səbəbkarları - mövzusundan çox kənar məqamlar üzrə parça-parça söhbət açan Elmir bəy və sərbəst şəkildə danışa bilmədiyi halda doğma dilində çıxış etdiyi üçün təqdir etdiyim, lakin, absurd fikirləri ilə tamamilə razılaşmadığım Gültəkin xanım oldu. İtalyan musiqi həyatının mühüm bir parçası olan opera sənətinə muzey yanaşması qəti dərəcədə qəbulolunmazdır...və yaxud nəyə görə biz hələ də Şərq və Qərb tərəflərini yarış keçirir kimi müqayisə edən söhbət aparırıq? Nə zaman bu kompleks dağılacaq?...

Nəysə ki, festivalın və günün sonunda György Ligetinin 100 illiyi münasibətilə Nizami Kino Mərkəzində təşkil olunan "György Ligeti: Portrait" filminin nümayişi, zənnimcə, hər kəs üçün çox xoş keçdi. Bugünə qədər həyatı haqqında nəzəri şəkildə sahib olduğum məlumatı bəstəkarın öz dilindən dinlədiyim zaman daha dolğun empatiya hissi keçirtdim. Nəhəng bəstəkarın səmimi söhbəti çox böyük təəssürat bağışladı ki, bu da tam olaraq festivala yaraşacaq sonluq idi.

Necə deyərlər, iş olan yerdə hər zaman qüsur da vardır. Ümidvaram, gələn festival zamanı texniki məqamlar daha da keyfiyyət sahibi olar. Kiçik bir nümunə kimi konsert salonunda oturacaqlar üzərində yerləşdirilən proqramların ağ-qara şəklində çıxarılmasını vermək olar. Əlavətən, xarici dillərdə yazılan əsər adları ilə yanaşı, mötərizə daxilində tərcümələr də qeyd oluna bilərdi.

Ümumiyyətlə, festivala ayrılan büdcənin bütün normativləri yüksək səviyyədə keçirməsi üçün yetərli olmadığını asanlıqla duymaq olar. Buna baxmayaraq, başda Türkər Qasımzadə olmaqla bütün təşkilatçı heyəti belə bir təşəbbüsü imkan daxilində gerçəkləşdirməsindən ötrü təbrik edirəm. İncəsənət sferasındakı təşkilat məsələlərinin digər sahələrlə müqayisədə daha çətin olduğunu və "I Bakı Müasir Musiqi Günləri" festivalının da belə bir səviyyədə başlanğıc götürməsi yalnız təqdirəlayiqdir deyə düşünürəm.

Yazının başında qeyd etdiyim "nəticə etibarilə həm təşkil edən tərəf, həm də dinləyici kütləsi üçün düşünülən və arzu olunan mənzərə göründümü?" sualı təbii ki, müzakirəyə açıq mövzudur. Gələn illərdə marketinq baxımından daha da inkişaf etdirilmiş festival tərtibatı qarşımıza çıxsa da, gənc musiqiçilərdə müəyyən bir laqeydlik dərəcəsinin hələ qalacağı fikrindəyəm. Bunun səbəbi və səbəbkarları isə artıq başqa bir məqalə mövzusudur deyə düşünürəm...

**Rüzgar ƏHMƏDZADƏ**